# Şakir Albalıyev Kazakların medalı ilə təltif olundu



Noyabrın 26-da qəzetimizin əməkdaşı Şakir Albalıyev Ukrayna kazaklarının getmanı (atamanı, başçısı) marşal Dmitro Saqaydakın imzaladığı "Zaporojye kazaklığı" beynəlmiləl ictimai təşkilatının medalı ilə təltif olunub. Qeyd edək ki, həmyerlimiz olan kazakların marşalı Üzeyir Vahabovun 65 illik yubileyi münasibəti ilə təsis olunmuş bu medala o, mətbuatdakı hərbi vətənpərvərlik mövzusundakı fəal çıxışlarına görə layiq görülmüşdür.

Medalı Ş.Albalıyevə Ukrayna kazaklarının Azərbaycandan olan getman nümayəndəsi marşal Üzeyir Vahabovun özü şəxsən təqdim etmişdir. Ş.Əlifoğlunu layiq görüldüyü bu uğura görə təbrik edir, ona yeni-yeni yaradıcılıq nailiyyətləri arzulayırıq!

**"Kredo"**

Kredo 2019.- 4 dekabr.- S.16.